# ODLAR YURDU UNİVERSİTETİ
# STRATEJİ İNKİŞAF PLANININ (2017-2022)
# 2019-2020-Cİ TƏDRİS İLİ ÜZRƏ MONİTORİNQ

# HESABATI

**Bakı – 2020**

# MÜNDƏRİCAT


**1. GİRİŞ ........................................................................ 3**

**2. STRATEJİ MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ ............. 3**

**3. ƏSAS ÇƏTİNLİKLƏR VƏ MƏHDUDİYYƏTLƏR .................................... 18**

**4. GÖZLƏNİLƏN NƏTİCƏLƏR........................................................... 19**

**5. NƏTİCƏ VƏ TƏKLİFLƏR.............................................................. 19**

## 1. GİRİŞ

Bu monitorinq hesabatı Odlar Yurdu Universitetinin 2017-2022-ci illəri əhatə edən Strateji İnkişaf Planının (SİP) 2019-2020-ci tədris ili üzrə həyata keçirilmiş fəaliyyətlərin qiymətləndirilməsinə həsr olunmuşdur. 2017–2022-ci illəri əhatə edən Strateji İnkişaf Planı Odlar Yurdu Universitetinin qarşıya qoyduğu məqsəd və hədəflərin sistemli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə hazırlanmışdır. Bu çərçivədə, 2019-2020-ci tədris ili də mühüm fəaliyyət mərhələlərindən biri olmuşdur. Lakin qeyd olunan dövr ərzində bütün dünyada, o cümlədən ölkəmizdə baş vermiş Covid-19 pandemiyası təhsil sisteminə birbaşa təsir göstərmiş, ali təhsil müəssisələrinin strateji fəaliyyətlərini və prioritet istiqamətlər üzrə inkişaf dinamikasını əhəmiyyətli dərəcədə dəyişdirmişdir.

Pandemiyanın yaratdığı fövqəladə vəziyyət, həm akademik, həm də inzibati proseslərin sürətlə rəqəmsallaşmasını zəruri etmiş, ənənəvi tədris modellərinin qısa müddətdə yenidən qurulmasını tələb etmişdir. Bu şəraitdə müəssisənin əsas strateji hədəflərinə doğru irəliləməsi, çevik idarəetmə yanaşmalarının tətbiqi və yeni yaranan çağırışlara uyğunlaşma qabiliyyətindən birbaşa asılı olmuşdur.

## 2. STRATEJİ MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ

### Strateji məqsəd 1. Daxili keyfiyyət təminatını təkmilləşdirmək

***Hədəf 1.*** *Keyfiyyətli təhsilə yönələn sistemin inkişaf etdirilməsi;*

2019-2020-ci tədris ili ərzində COVID-19 pandemiyası ali təhsil sistemində bir sıra yeni çağırışlar yaratmış və bu çətinliklərə uyğun olaraq daxili keyfiyyət təminatı sisteminin çevik və dayanıqlı şəkildə yenidən qurulmasını zəruri etmişdir. Ənənəvi tədris və idarəetmə modellərinin onlayn platformalara

keçidi, müəllim və tələbələrin yeni texnologiyalara sürətli adaptasiyasını zəruri etmişdir.

Bu dövrdə daxili keyfiyyət təminatının təkmilləşdirilməsi məqsədilə aşağıdakı tədbirlər həyata keçirilmişdir:

- Tədris prosesinin Microsoft Teams və Zoom platformaları vasitəsilə məsafədən təşkili reallaşdırılmışdır;
- Müəllim və tələbələr üçün rəqəmsal bacarıqların artırılmasına yönəlmiş təlimlər təşkil olunmuşdur.

***Hədəf 2.****Tədris keyfiyyətinin və mənimsəmə imkanlarının yüksəldilməsi*

2019-2020-ci tədris ilində mövcud tələbə sayı nəzərə alınmaqla internetə çıxışı olan kompüterlərin sayı ötən tədris ili ilə müqayisədə 28 faiz artaraq 128 ədəd olması müşahidə edilmişdir. Uzunmüddətli perspektivdə tələbə kontingentin sayının artması və pandemiyanın yaradacığı qeyri-müəyyənliyin davam etməsi ehtimalı çərçivəsində kompüterlərin sayının artmasına ehtiyac yarana bilər ki, bu da müasir çağırışların başlıca prioritet istiqamətləri ilə uyğunluq təşkil edir.

Digər tərəfdən ötən tədris ili ilə müqayisədə 2019-2020-ci tədris ilində kompüterlə təchiz edilmiş laboratoriyaların sayında 25 faizlik artım müşahidə olunmuşdur. Belə ki, 2019-2020-ci tədris ilində kompüterlə təchiz edilmiş laboratoriyaların sayı 5 olaraq müəyyən edilmişdir. Tədris keyfiyyətinin və mənimsəmə imkanlarının yüksəldilməsi kontekstində sözügedən sayın artırılmasına da zərurət vardır. Belə ki, ixtisasların spesifik xüsusiyyətlərinə müvafiq olaraq mənimsəmənin artırılması üçün bu fəaliyyətin müntəzəm olaraq təkmilləşdirilməsinə ehtiyac vardır.

***Hədəf 3.****OYU-da daha yüksək elmi dərəcəsi, biliyi, səriştəsi ilə fərqlənən alimlərin, pedaqoqların sayının baza ilinə nisbətdə 10 faiz artırılması;*

2019-2020-ci tədris ili üzrə elmi dərəcəsi olan tədqiqatçıların sayı 30 nəfər olaraq müəyyən edilmişdir. Qeyd etmək lazımdır ki, pandemiyanın yaratdığı yeni reallıqlar çərçivəsində müasir texnologiyalardan istifadə zəruri hal almışdır ki, bu da əmək bazarında müxtəlif transformasiyaları formalaşdıraraq struktur problemləri ön plana çıxardır.

Digər tərəfdən 2019-2020-ci tədris ili üzrə Odlar Yurdu Universitetində elmlər doktoru və professor dərəcəsinə malik olan müəllimlərin sayı 5 olaraq müəyyən edilmişdir. Sözügedən hədəfə nail olunması üçün universitetdə elmi dərəcəsi olan tədqiqatçıların fəaliyyətini stimullaşdıracaq mexanizmlərin formalaşdırılmasına ehtiyac yarana bilər.

***Hədəf 4.*** *"universitet-məzun", "universitet–valideyn", "universitet-ictimaiyyət" sistemlərini qurmaq, universitetin saytının daha dolğun və çevik olmasını təmin etmək;*

Sözügedən hədəf üzrə Məzunlarla iş mərkəzinin mövcudluğu universitet-məzun əlaqələrinin qurulması üçün zəruri olsa da, bununla bağlı daha geniş struktur bölmənin yaradılmasına ehtiyac vardır.

**Strateji məqsəd 2. Tədris prosesində interaktiv, yeni və daha müasir metodlardan istifadə etmək**

***Hədəf 1.*** *Yeni təhsil standartlarına cavab verən auditoriyaların təşkil edilməsi;*

Odlar Yurdu Universitetində ötən tədris ili ilə müqayisədə 2019-2020-ci tədris ili üzrə proyektor ilə təchiz edilmiş auditoriyaların sayında 66.7 faizlik artım müşahidə edilməkdədir. Belə ki, Odlar Yurdu Universitetində 2019-2020-ci tədris ili üzrə proyektor ilə təchiz edilmiş auditoriyaların sayı 15 olaraq müəyyən edilmişdir. Eyni zamanda ötən tədris ili ilə müqayisədə interaktiv lövhə ilə təchiz edilmiş auditoriyaların sayında isə dəyişiklik müşahidə

edilməmişdir. Bunun başlıca səbəbi isə dərslərin distant formada məsafədən təşkil edilməsi və pandemiyanın yaratdığı digər məhdudiyyətlərdir.

***Hədəf 2.*** *Müəllim və tələbə heyyətinin müasir kompüter proqram-paketlərindən istifadə bacarıqlarının artırılması;*

Əmək bazarının tələblərinə cavab verən rəqabətqabilliyyətli kadrların yetişdirilməsi üçün sözügedən hədəfin reallaşdırılması zəruridir. Sözügedən tədris ili üzrə bu bacarıqların artırılmasına istiqamətlənən fəaliyyət qismən davam etməkdədir. Lakin pandemiyanın yaratdığı çətinliklər hədəfin reallaşmasının qarşısında baryer olaraq dayanmaqdadır.

***Hədəf 3.*** *İnnovativ və interaktiv təlim metodlarından istifadənin genişləndirilməsi;*

Müasir təlim metodlarından istifadə edilməsi mənimsəmə göstəricisinin yüksəldilməsi üçün önəmlidir. Burada ümumi metodlardan istifadə edilə yanaşı spesifik metodlardan da istifadə üçün müvafiq mexanizmlərin formalaşdırılması önəmlidir. Sözügedən hədəf üzrə fəaliyyət qismən davam etməkdədir. Lakin hədəfin tam reallaşması üçün daha intensiv fəaliyyətə ehtiyac vardır.

***Hədəf 4.*** *Tədris prosesinin İKT-dən istifadə ilə qurulması, tədris materiallarının elektron daşıyıcılarda işlənməsi və tətbiqi;*

Odlar Yurdu Universitetinin 2017-2022-ci illərini əhatə edən SİP-in II strateji məqsədinin I hədəfində tədris prosesində İKT-dən istifadə üçün infrastruktun 2019-2020-ci tədris ili üçün cari vəziyyəti göstərilmişdir. Proqram, sillabus, mühazirə materialları kimi tədris materiallarının elektron daşıyıcılarda işlənməsi prosesi dayanıqlı şəkildə davam etməkdədir. Lakin prosesin uzunmüddətli perspektivdə tətbiqinin efffektiv olması üçün Odlar Yurdu Universitetinin 2017-2022-ci illərini əhatə edən SİP-in II strateji məqsədinin I hədəfinin dayanıqlı inkişaf etdirilməsinə ehtiyac vardır.

***Hədəf* 5.** *Təhsil proqramlarının beynəlxalq akkreditasiya qurumlarının tələblərinə uyğunlaşdırılması;*

Müasir dövrdə ali təhsil müəssisələrinin qarşısında duran əsas çağırışlardan biri beynəlxalq rəqabətə davamlı olmaq, məzunlarını qlobal əmək bazarına uyğun hazırlamaq və akademik nüfuzunu artırmaqdır. Bu məqsədə çatmaq üçün təhsil proqramlarının beynəlxalq akkreditasiya qurumlarının tələblərinə uyğunlaşdırılması vacibdir. Sözügedən hədəfin reallaşdırılması Odlar Yurdu Universitetinin reytinqinin artması ilə də səciyyələnə bilər. Mövcud tədris ili üçün sözügedən istiqamət üzrə fəaliyyət qismən davam etməkdədir. Lakin pandemiyanın yaratdığı çətinliklər hədəfin reallaşmasının qarşısında baryer olaraq dayanmaqdadır.

***Hədəf* 6.** *OYU-nun elektron kitabxanasının yaradılması;*

Xüsusilə Covid-19 pandemiyası ərəfində təhsilin və tədrisin modernizasiyası üçün kitabxananın elektronlaşdırılması zəruridir. Bu istiqamətdə fəaliyyət davam etməkdədir.

***Hədəf* 7.** *Təhsil Nazirliyindən qrif almış fənn proqramlarının sayının artırılması;*

Təhsil Nazirliyi tərəfindən fənn proqramlarına qrifin verilməsi həmin fənn proqramının standartlarının ölkənin təhsil standartları ilə uyğunlunu xarakterizə edir. Sözügedən istiqamətdə Odlar Yurdu Universitetinin kafedralarının fəaliyyətinin gücləndirilməsinə ehtiyac vardır. Bu istiqamətdə fəaliyyət davam etməkdədir.

***Hədəf* 8.** *Tələbə qəbulunun sayını baza ilinə nisbətdə 2 dəfəyə yaxın genişləndirmək;*

Odlar Yurdu Universitetində 2019-2020-ci tədris ili üzrə bakalavr səviyyəsinə qəbul olan tələbə sayında ötən tədris ili ilə müqayiəsədə 55.4 faizlik, baza ili ilə müqayisədə isə 2.7 dəfəlik bir artım müşahidə edilməkdədir. Belə ki, 2019-2020-ci tədris ili üzrə bakalavr səviyyəsinə qəbul olan tələbə sayı 841 nəfərdir. Digər tərəfdən isə, 2019-2020-ci tədris ili üzrə magistratura səviyyəsinə qəbul olan tələbə sayı 34 nəfər tələbə olması müəyyən edilmişdir. Bunun başlıca səbəblərindən biri kimi əmək bazarında baş verən transformasiyalar ola bilər. Sözügedən hədəfin reallaşdırılması üçün tələbə mərkəzli universitetə çevrilmənin mexanizmləri müəyyən edilməlidir. Eyni zamanda burada ictimaiyyətlə əlaqələr sektorunun genişləndirilməsinə ehtiyac vardır. Hal-hazırda sözügedən istiqamət üzrə müqayisəli təhlil aparmaq mümkün deyildir.

***Hədəf 9.*** *Tədrisi təklif olunan ixtisasların sayının baza ilinə nisbətdə artırılması*

Odlar Yurdu Universitetində tədrisi təklif olunan ixtisaslarının sayının baza ilinə nisbətdə artırılması əmək bazarının tələblərinə müvafiq olaraq dəyişməlidir. 2019-2020-ci tədris ilində bakalavriat səviyyəsi üzrə "Kommersiya" ixtisası, "Ekologiya" ixtisası, "İstehlak mallarının ekspertizası və marketinq" və "Sosial iş" ixtisası tədrisə daxil edilmişdir. Bununla da tədrisi təklif olunan ixtisasların sayı 22 olaraq müəyyən edilmişdir. Sözügedən ixtisaslar aşağıdakılardır.

1. Məktəbəqədər təlim və tərbiyyə
2. Təhsildə - sosial – psixoloji xidmət
3. Xarici dil müəllimliyi (ingilis dili)
4. Beynəlxalq münasibətlər
5. Filologiya
6. Psixologiya
7. Tərcümə (ingilis dili)
8. Dizayn (interyer; qrafik; modelyer)

9. Biznesin idarə edilməsi
10. Dövlət və bələdiyyə idarəetməsi
11. Dünya iqtisadiyyatı
12. Maliyyə
13. Kommersiya
14. Marketinq
15. Menecment
16. Mühasibat uçotu və audit
17. Biologiya
18. Ekologiya
19. İstehlak mallarının ekspertizası və marketinq
20. Kompüter mühəndisliyi
21. Sosial iş
22. Turizm və otelçilik

2019-2020-ci tədris ili üçün universitetdə magistratura səviyyəsi üzrə tədrisi təklif olunan ixtisaslaşmaların sayı dəyişməyərək 12 olmuşdur. Magistratura səviyyəsi üzrə 2019-2020-ci tədris ili üzrə "Azərbaycan dili", "Azərbaycan ədəbiyyatı", "Menecment (təhsil, turizm, səhiyyə, ümumi menecment)", "Marketinq (təhsil, turizm, səhiyyə)" ixtisaslaşmaları tədris üçün təklif edilmişdir. Sözügedən ixtisaslaşmalar aşağıdakılardır.

1. Xarici dilin tədrisi metodikası və metodologiyası (ingilis dili üzrə)
2. Azərbaycan ədəbiyyatı
3. Azərbaycan dili
4. Beynəlxalq iqtisadi münasibətlər
5. Beynəlxalq maliyyə və valyuta-kredit münasibətləri
6. Bank işi
7. Maliyyə nəzarəti və audit
8. Menecment (təhsil, turizm, səhiyyə, ümumi menecment)
9. Marketinq (təhsil, turizm, səhiyyə)

10. Biznesin təşkili və idarə edilməsi
11. Kompüter mühəndisliyi
12. İdarəetmədə informasiya sistemləri

**Strateji məqsəd 3. Universitetin monitorinq, təhlil, qiymətləndirmə sisteminin təkmilləşdirilməsi**

***Hədəf 1.****Təhsil keyfiyyətinin artırılması üçün başlıca meyarlarının müəyyən edilməsi;*

Odlar Yurdu Universitetində təhsil keyfiyyətin artırılması üçün başlıca meyarların müəyyən edilməsi çərçivəsində “Odlar Yurdu Universitetinin Keyfiyyət Təminatı Siyasəti” adlı sənəd tərtib edilmiş və Odlar Yurdu Universitetinin rektoru tərəfindn 30 aprel 2020-ci ildə təsdiq edilmişdir.

***Hədəf 2.****Tələbələrin imtahan-monitorinq nəticələrinin təhlili;*

Tələbələrin hər tədris ilinin sonunda imtahan-monitorinq nəticələrinin təhlili Birləşmiş Fakültələr Departamenti tərəfindən aparılmaqdadır. Prosesin ümumi gedişatına nəzarət isə Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən aparılmaqdadır.

***Hədəf 3.*** *Monitorinq və nəzarət mexanizminin formalaşdırılması və tətbiq edilməsi;*

Monitorinq və nəzarət mexanizminin formalaşdırılması məqsədilə Universitetdə Keyfiyyətin Təminatı Mərkəzi fəaliyyət göstərməkdədir. Bu mərkəzin fəaliyyətinin başlıca istiqamətlərindən biri də məhz monitorinqlərin aparılmasıdır.

***Hədəf 4.*** *Monitorinq zamanı ortaya çıxan problemlərin aradan qaldırılması məqsədilə işlərin görülməsi;*

Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən aparılan monitorinqlər zamanı ortaya çıxan problemlərin aradan qaldırılması Universitetinin Elmi Şurasında müzakirə edilməkdə və bununla əlaqədar zəruri işlər görülməkdədir.

***Hədəf* 5.** *Sistemli şəkildə Universitetdə müxtəlif istiqamətlər üzrə mütəmadi monitorinqlərin aparılması;*

Sözügedən hədəf üzrə fəaliyyət davam etməkdədir. Lakin prosesin intensivləşməsinə ehtiyac vardır. Xüsusilə pandemiyanın yaratdığı müasir reallıqlar çərçivəsində onlayn sorğular aparıla bilər.

***Hədəf* 6.** *Tələbələrin sosial vəziyyətlərini müəyyən edən monitorinqlərin keçirilməsi və təhlili;*

Sözügedən hədəf üzrə fəaliyyət davam etməkdədir. Lakin prosesin intensivləşməsinə ehtiyac vardır. Xüsusilə pandemiyanın yaratdığı müasir reallıqlar çərçivəsində onlayn və anonim sorğular aparıla bilər ki, bu da effektiv bir monitorinq metodu kimi istifadə edilə bilər.

***Hədəf* 7.** *Professor müəllim heyyətinin reytinqinin müəyyən edilməsi meyyarlarının hazırlanması və "keyfiyyət elçiləri"nin köməyi ilə monitorinqin aparılmasını təmin etmək;*

Professor müəllim heyyətinin reytinqinin müəyyən edilməsi meyyarlar əsasən hazırlanmışdır. Lakin prosesin intensivləşməsinə ehtiyac vardır. "Keyfiyyət elçiləri"nin köməyi ilə onlayn monitorinqlər aparılmaqdadır.

***Hədəf* 8.** *Qiymətləndirmə sisteminin səmərəliliyini artırmaq, davamlılığını təmin etmək;*

Sözügedən hədəf üzrə fəaliyyət davam etməkdədir. Lakin prosesin intensivləşməsinə ehtiyac vardır. Səmərəliliyin və davamlılığın artırılması üçün qiymətləndirmə sisteminin elektronlaşdırılması zəruri faktor kimi görünə bilər.

***Hədəf 9.****Tələbə məmunluğunu əldə etmək naminə "şikayət və təkliflər" qutusu üsulundan istifadə etmək.*

Tələbə məmnuniyyətinin yüksəldilməsi istiqamətində "Şikayət və təkliflər" qutusu vasitəsilə geridönüş mexanizminin qurulması nəzərdə tutulsa da, Covid-19 pandemiyası səbəbindən tədris prosesinin məsafədən təşkili bu təşəbbüsün fiziki formada həyata keçirilməsinə imkan verməmişdir. Bununla belə, tələbə rəyinin toplanması və nəzərə alınması məqsədilə onlayn alternativ imkanların (elektron müraciət formaları, e-poçt vasitəsilə geridönüş, virtual görüşlər və s.) tətbiqi məsələsi gündəmdə saxlanılmışdır.

**Strateji məqsəd 4. Universitetin elmi-tədqiqat işinin inkişaf etdirilməsi**

***Hədəf 1.*** *Bir tərəfdən kafedranın elmi istiqamətləri ilə digər tərəfdən universitetlər, məktəblər və biznes subyektləri arasında sabit əməkdaşlıq əlaqələrinin formalaşdırılması;*

Kafedranın elmi fəaliyyət istiqamətləri ilə universitetlər, ümumtəhsil müəssisələri və biznes subyektləri arasında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması cari dövr üçün nəzərdə tutulmuş əsas hədəflərdən biri olmuşdur. Bununla belə, Covid-19 pandemiyasının yaratdığı məhdudiyyətlər – o cümlədən, sosial təcrid tədbirləri, fiziki görüşlərin məhdudlaşdırılması və tərəfdaş qurumların fəaliyyətində yaranan fasilələr – bu əməkdaşlıqların planlaşdırıldığı miqyasda həyata keçirilməsinə əngəl yaratmışdır.

Qeyd olunan səbəblərə baxmayaraq, qarşılıqlı əməkdaşlıq potensialı qorunmuş və gələcək dövrlərdə bu hədəfin reallaşdırılması üçün əsas ilkin təmaslar və planlaşdırma fəaliyyətləri saxlanılmışdır. 2019-2020-ci tədris ili ərzində aşağıdakı təşkilatlar ilə əməkdaşlıq əlaqələri qurulmuşdur:

- 03 fevral 2020-ci il - Porline MMC

***Hədəf 2.*** *"Scopus" bazasında çapedilən məqalələrin illik sayının baza ilinə nisbətdə ən azı 2 dəfə artırılması;*

2019-cu il üzrə Scopus bazasında Odlar Yurdu Universitetinin əməkdaşlarının məqalələrinin sayı 3 olaraq müəyyən edilmişdir [1]. Prosesin intensivləşməsinə ehtiyac vardır. Bu göstərici uzunmüddətli perspektivdə Odlar Yurdu Universitetinin reytinqinə təsir edə bilər.

***Hədəf 3.*** *"Scopus" bazasındakı istinad indeksinin baza ilinə nisbətdə ən azı 10 dəfə artırılması;*

2019-cu il üzrə Scopus bazasında Odlar Yurdu Universitetinin istinad indeksi baza ilinə (2017) nisbətdə 5 dəfə artaraq, 10 olaraq müəyyən edilmişdir.[2] Bu göstəricinin SİP-in icrasının sonunda minimum 10 dəfə artması hədəflənməkdədir.

***Hədəf 4.*** *"Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri" jurnalının elmi bazalara daxil edilməsini təşkil etmək;*

"Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri" Jurnalı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyanın tövsiyyə etdiyi nəşrlər siyahısındadır. Strateji dövrdə jurnalın yeni elmi bazalara daxil edilməsi hədəflənməkdədir. 2019-2020-ci tədris ili üzrə sözügedən istiqamət üzrə fəaliyyətə davam etmiş və Elmi-Metodik Şurada müzakirə edilmişdir.

---

[1] Qeyd: Scopus bazasında məqalələrin sayı cari ilin sonu üçün müəyyən edilmişdir. Bu səbəbdən hesabatdakı məlumatların doğruluğunu təmin etmək məqsədilə təqvim ilinin sonunda hesabata müvafiq düzəlişlər edilmişdir

[2] Qeyd: Scopus bazasında istinad indeksi cari ilin sonu üçün müəyyən edilmişdir. Bu səbəbdən hesabatdakı məlumatların doğruluğunu təmin etmək məqsədilə təqvim ilinin sonunda hesabata müvafiq düzəlişlər edilmişdir.

***Hədəf* 5.** *"Scopus" bazasına daxil olan beynəlxalq elmi konfranslarda OYU-nun*
*adından məqalələrin mövcud olmasını təmin etmək;*

Odlar Yurdu Universitetinin əməkdaşlarının 2019-cu il üzrə Scopus bazasına daxil olan beynəlxalq elmi konfranslardakı məqalə sayında ötən tədris ilinə nisbətdə 3 dəfəlik artım müşahidə edilmişdir. Belə ki, Odlar Yurdu Universitetinin əməkdaşlarının 2019-cu il üzrə Scopus bazasına daxil olan beynəlxalq elmi konfranslardakı məqalə sayı 3 olaraq müəyyən edilmişdir.[3] Sözügedən prosesin intensivləşməsinə ehtiyac vardır.

***Hədəf* 6.** *Universitetin elmi-tədqiqat strategiyasının formalaşdırılması;*

Odlar Yurdu Universitetində 2017-2022-ci illəri əhatə edən elmi-tədqiqat strategiyası formalaşdırılmış və 01.02.2018-ci ildə təsdiq edilmişdir. Bu hədəf tam reallaşdırılmışdır.

***Hədəf* 7.** *Elmi-tədqiqat işlərinin nəticələrinin tədrisdə, magistr və doktorluq işlərində tətbiq edilməsi;*

Odlar Yurdu Universitetində elmi-tədqiqat işlərinin tədris, magistr və doktorluq işlərində tətbiq edilməsi ilə bağlı fəaliyyətə davam etməkdədir. Belə ki, magistr və doktorant tələbələrinin elmi əsərləri çap edilmiş və bu elmi əsərlərdən dissertasiyalarda istifadə edilmişdir.

***Hədəf* 8.** *Əqli mülkiyyətin qorunmasına yönəlmiş anti-plagiat sisteminin qurulması;*

---

[3] Qeyd: Scopus bazasında məqalələrin sayı cari ilin sonu üçün müəyyən edilmişdir. Bu səbəbdən hesabatdakı məlumatların doğruluğunu təmin etmək məqsədilə təqvim ilinin sonunda hesabata müvafiq düzəlişlər edilmişdir

Akademik etikanın əsasını təşkil edən istiqamətlərdən biri də əqli mülkiyyətin qorunmasıdır. Bu istiqamətdə reytinqli proqramların alınmasına ehtiyac vardır. Sözügedən istiqamət üzrə fəaliyyət qismən davam etməkdədir. Lakin hədəfin tam reallaşması üçün daha intensiv fəaliyyətə ehtiyac vardır.

**Strateji məqsəd 5. Universitetin beynəlxalq əlaqələrini genişləndirmək**

***Hədəf 1.*** *Xaricdə fəaliyyət göstərən universitetlərlə yeni əlaqələrin qurulması;*

Xaricdə fəaliyyət göstərən universitetlərlə yeni əməkdaşlıq əlaqələrinin qurulması ali təhsil müəssisəsinin beynəlmiləlləşmə strategiyası çərçivəsində əsas hədəflərdən biri kimi müəyyən edilmişdi. Lakin 2019–2020-ci tədris ilində Covid-19 pandemiyasının səbəb olduğu beynəlxalq səviyyədə səyahət və fəaliyyət məhdudiyyətləri, həmçinin tərəfdaş qurumlarla qarşılıqlı fiziki təmasların məhdudlaşması bu istiqamətdə nəzərdə tutulan addımların həyata keçirilməsini çətinləşdirmişdir. Buna baxmayaraq, əlaqələrin qurulması üzrə təşəbbüslər dayandırılmamış, sonrakı dövrlər üçün onlayn əməkdaşlıq imkanlarının qiymətləndirilməsi nəzərdə tutulmuşdur.

***Hədəf 2.*** *Universitetin müəllim və tələbələrinin beynəlxalq mübadilə proqramlarına cəlb edilməsini genişləndirmək;*

Universitetin müəllim və tələbələrinin beynəlxalq mübadilə proqramlarında iştirakının genişləndirilməsi Ali Təhsil Müəssisəsinin beynəlxalq əlaqələrinin gücləndirilməsi və akademik mobilliyin təşviqi baxımından strateji əhəmiyyət daşıyırdı. Lakin 2019–2020-ci tədris ilində Covid-19 pandemiyasının səbəb olduğu qlobal səyahət məhdudiyyətləri, bir sıra proqramların müvəqqəti dayandırılması və tərəfdaş ali təhsil müəssisələrinin fəaliyyət rejimindəki dəyişikliklər bu istiqamətdə nəzərdə tutulmuş fəaliyyətlərin həyata keçirilməsinə mane olmuşdur.

Bununla belə, pandemiya şəraitində mövcud əməkdaşlıqların qorunması və gələcək mübadilə imkanları üçün ilkin əlaqələrin saxlanılması diqqətdə

saxlanılmış, bəzi proqramlarda isə onlayn formatda iştirak imkanları qiymətləndirilmişdir.

***Hədəf 3.*** *Xarici təşkilatlarla əməkdaşlıq edərək, təhsil və elm sahəsindəki proqramlarda, layihələrdə, konfranslarda, vebinarlarda, debatlarda OYU-nun əməkdaşlarının iştirakını təşkil etmək;*

Xarici təşkilatlarla əməkdaşlıq çərçivəsində universitet əməkdaşlarının təhsil və elm sahəsindəki beynəlxalq proqramlarda, layihələrdə, konfranslarda, vebinarlarda və debatlarda iştirakının təşkili qarşıya qoyulmuş əsas hədəflərdən biri olmuşdur. Bu hədəf beynəlxalq təcrübə mübadiləsinin gücləndirilməsi, akademik şəbəkələşmə və elmi fəaliyyətlərin genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edirdi.

Lakin COVID-19 pandemiyası dövründə beynəlxalq tədbirlərin əksəriyyətinin ya ləğv olunması, ya da məhdud iştirak formatına keçirilməsi, habelə səyahət və ünsiyyət məhdudiyyətləri səbəbilə nəzərdə tutulan fəaliyyətlərin planlaşdırıldığı formada icrası mümkün olmamışdır.

Bununla belə, distant əməkdaşlıq imkanlarının qiymətləndirilməsi və müvafiq istiqamətlər üzrə ilkin əlaqələrin saxlanılması təmin edilmiş, gələcək dövrlər üçün bu hədəfin reallaşdırılmasına zəmin qorunmuşdur.

***Hədəf 4.*** *Əcnəbi tələbələrlə iş keyfiyyətinin daha da təkmilləşdirilməsi və qəbul sayının baza ilinə nisbətdə ən azı 50 faiz artırılması;*

Odlar Yurdu Universitetində ötən tədris ili ilə müqayisədə 2019-2020-ci tədris ili üçün əcnəbi tələbələrin sayında 2.1 dəfəlik, baza ili olan 2017-2018-ci tədris ili müqayisədə isə 24 faizlik artım müşahidə olunmuşdur. Belə ki, 2019-2020-ci tədris ilinda Odlar Yurdu Universitetində əcnəbi tələbələrin sayı 31 nəfər təşkil etmişdir. Bu hədəfin reallaşması üçün xarici dil biliyi yüksək olan müəllimlərə və müvafiq infrastrukturun inkişafına ehtiyac vardır.

***Hədəf 5.*** *Tərəfdaş olduğumuz beynəlxalq səviyyəli qrant layihələrinin sayının artırılması;*

Tərəfdaş olduğumuz beynəlxalq səviyyəli qrant layihələrinin sayının artırılması ali təhsil müəssisəsinin elmi potensialının gücləndirilməsi və beynəlxalq tədqiqat şəbəkələrinə inteqrasiyası baxımından mühüm strateji hədəflərdən biri olmuşdur. Lakin 2019-2020-ci tədris ilində COVID-19 pandemiyasının yaratdığı qeyri-müəyyənlik, bir çox beynəlxalq fondların fəaliyyət planlarında dəyişikliklər və müraciət proseslərində yaranan texniki və kommunikativ məhdudiyyətlər səbəbilə bu istiqamətdə nəzərdə tutulan təşəbbüslərin reallaşdırılması mümkün olmamışdır.

Bununla belə, mövcud tərəfdaşlıqların qorunması və gələcək dövrlər üçün yeni qrant imkanlarının izlənməsi istiqamətində hazırlıq və araşdırma işləri davam etdirilmişdir.

***Hədəf 6.*** *Beynəlmiləlləşmə siyasətinin formalaşdırılması*

Sözügedən siyasətin formalaşdırılmış və 01.02.2018-ci ildə təsdiq edilmişdir. Bu siyasət özündə Ali Təhsil Müəssisəsinin beynəlxalq tanıtımının başlıca istiqamətlərini ehtiva etməkdədir. Hədəf tam icra olunmuşdur.

## 3. ƏSAS ÇƏTİNLİKLƏR VƏ MƏHDUDİYYƏTLƏR

2019-2020-ci tədris ili üzrə Strateji İnkişaf Planının icrası zamanı qlobal miqyasda baş vermiş COVID-19 pandemiyası bir sıra fəaliyyət istiqamətlərində obyektiv çətinlik və məhdudiyyətlər yaratmışdır. Pandemiyanın təsiri, xüsusilə ali təhsildə ənənəvi fəaliyyət formalarının məhdudlaşdırılması, strateji hədəflərin reallaşdırılmasına müəyyən dərəcədə təsir göstərmişdir. Bununla belə, qarşıya çıxan çətinliklərə çevik yanaşmalar tətbiq olunmuş, mümkün olan hallarda alternativ yollar axtarılmışdır.

Əsas çətinlik və məhdudiyyətlər aşağıdakılardan ibarət olmuşdur:

- Beynəlxalq fəaliyyətlərin məhdudlaşması. Müxtəlif ölkələrdə tətbiq olunan səyahət məhdudiyyətləri, tədbirlərin təxirə salınması və ya onlayn formata keçirilməsi, əməkdaşlıq layihələrinin nəzərdə tutulan formada həyata keçirilməsinə təsir etmişdir.
- Tərəfdaşlıq imkanlarının məhdud fəaliyyəti. Xarici və yerli təşkilatlarla yeni əməkdaşlıq əlaqələrinin qurulması və genişləndirilməsi pandemiya şəraiti səbəbilə fiziki təmasların məhdudlaşdırılması fonunda çətinləşmişdir.
- Daxili keyfiyyət təminatının rəqəmsal şəraitə uyğunlaşdırılması. Keyfiyyət göstəricilərinin monitorinqi, geridönüş mexanizmləri və tələbə məmnuniyyətinin ölçülməsi istiqamətində nəzərdə tutulmuş bəzi fəaliyyətlər pandemiya şəraiti nəzərə alınaraq alternativ yollarla qismən davam etdirilmişdir.
- Elmi fəaliyyətlərin təşkili. Elmi-tədqiqat işlərinin bəzi mərhələlərində (xüsusilə fiziki mühit və komanda işi tələb edən istiqamətlərdə) operativliyin azalması müşahidə olunmuşdur.

## 4. GÖZLƏNİLƏN NƏTİCƏLƏR

2017-2022-ci illəri əhatə edən SİP-in yerinə yetirilməsi aşağıdakı nəticələrin əldə edilməsinə imkan yaradacaq:

- Odlar Yurdu Universitetinin Azərbaycanın aparıcı universitetlərindən biri kimi mövqeyinin möhkəmlənməsinə;
- OYU-nun xarici elm və təhsil məkanına inteqrasiyasının sürətlənməsinə;
- Beynəlxalq təsnifata uyğun istiqamət və ixtisaslar üzrə müasir tələblər səviyyəsində pedaqoji kadr hazırlığının aparılmasına;
- OYU-nun maddi-texniki və tədris-metodiki təminatının müasirləşdirilməsinə;
- Əcnəbi tələbələrin sayının artmasına;
- Universitetdə kadr hazırlığının cəmiyyətin əmək bazarının tələbatlarına uyğunlaşdırılmasına;
- Beynəlxalq tələblərə cavab verəcək keyfiyyətin təminatı və idarəolunması sisteminin yaradılmasına;
- Müəllim və tələbə mübadiləsi sahəsində imkanların artırılmasına;
- Beynəlxalq səviyyədə fundamental və tətbiqi elmi-tədqiqatların aparılmasına.

## 5. NƏTİCƏ VƏ TƏKLİFLƏR

2019-2020-ci tədris ili üzrə Strateji İnkişaf Planının icrası çərçivəsində bir sıra prioritet istiqamətlər üzrə nəzərəçarpacaq irəliləyişlər əldə edilmiş, tədris və idarəetmə sahələrində çevik adaptasiya mexanizmləri tətbiq olunmuşdur.

Bununla yanaşı, Covid-19 pandemiyasının yaratdığı fövqəladə şərait, xüsusilə fiziki fəaliyyət mühitinin məhdudlaşdırılması, beynəlxalq əməkdaşlıq imkanlarının azalması və texnoloji uyğunlaşma ehtiyacları planlaşdırılmış bəzi fəaliyyətlərin icrasına təsir göstərmişdir.

Mövcud şəraitə baxmayaraq, Odlar Yurdu Universiteti tərəfindən atılan çevik və məqsədyönlü addımlar nəticəsində bir sıra hədəflər ya tam, ya da qismən reallaşdırılmış, həmçinin rəqəmsal infrastrukturun inkişafı, onlayn tədrisin təşkili və daxili proseslərin çevik idarə olunması sahəsində mühüm təcrübə qazanılmışdır.

**Təkliflər:**

- Rəqəmsal imkanların davamlı inkişafı. Məsafədən tədris və onlayn idarəetmə proseslərinin keyfiyyətinin artırılması məqsədilə texnoloji infrastrukturun gücləndirilməsi və mütəmadi təlimlərin keçirilməsi tövsiyə olunur.
- Alternativ əməkdaşlıq mexanizmlərinin təşviqi. Beynəlxalq və yerli tərəfdaşlarla əməkdaşlığın davamlılığını təmin etmək üçün onlayn formatda birgə layihə, konfrans və mübadilə imkanlarının genişləndirilməsi məqsədəuyğundur.
- Daxili keyfiyyət təminatının dayanıqlı modellə təkmilləşdirilməsi. Rəqəmsal geridönüş mexanizmlərinin təkmilləşdirilməsi, tələbə və müəllim rəyinin daha səmərəli şəkildə toplanması və təhlili üçün çevik platformaların yaradılması vacibdir.
- Əməkdaşlıq və əlaqələndirmənin gücləndirilməsi. Fakültə və kafedralar səviyyəsində planlaşdırma, icra və hesabatlılıq proseslərinin daha koordinasiyalı şəkildə həyata keçirilməsi, ümumi strateji məqsədlərə xidmət baxımından əhəmiyyətlidir.

Bu monitorinq hesabatı SİP-in 2019-2020-ci tədris ili üzrə həyata keçirilmiş işlərin qiymətləndirilməsinə əsaslanır. Prosesin davamlı izlənilməsi və təkmilləşdirilməsi universitetin uzunmüddətli inkişaf strategiyasının uğurla həyata keçirilməsinə töhfə verəcəkdir.